AZƏRBAYCAN RESPUBLİKASININ

MALİYYƏ BAZARLARINA NƏZARƏT PALATASI

# QİYMƏTLİ KAĞIZLAR BAZARININ RÜBLÜK GÖSTƏRİCİLƏRİ

*31 mart 2017-ci il tarixinə*

**Bakı – 2017**

# Qiymətli kağızlar bazarının ümumi icmalı

2017-ci ilin ilk rübü ərzində qiymətli kağızlar bazarı artım nümayiş etdirmiş və pozitiv kəmiyyət göstəriciləri qeydə alınmışdır. Belə ki, 2017-ci ilin yanvar-mart ayları ərzində qiymətli kağızlar bazarı keçən ilin müvafiq dövrü ilə müqayisədə 33% artaraq 2,280 milyard manat təşkil etmişdir. Hesabat dövrü ərzində qiymətli kağızların təkrar bazarı 89% artaraq 1,1 milyard manatı ötmüşdür. Korporativ qiymətli kağızlar bazarının 11%- azalması fonunda, dövlət qiymətli kağızlar bazarı 84% artmışdır.

Ümumi göstəricilər

| | 2017 yanvar - mart | | 2016 yanvar - mart | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **692** | **1,033,096,355** | **462** | **1,157,679,302** | **-10.8%** | **45%** |
| İlkin bazar | 24 | 858,607,150 | **35** | 1,031,159,182 | -16.7% | |
| Təkrar bazar | 668 | 174,489,204 | **427** | 126,520,120 | 38% | |
| **Dövlət qiymətli kağızları** | **83** | **284,139,544** | **47** | **154,463,808** | **84%** | **12%** |
| İlkin bazar | 44 | 279,391,503 | **21** | 76,477,659 | 3.6 dəfə | |
| Təkrar bazar | 8 | 4,748,042 | **26** | 77,986,148 | -94% | |
| **Törəmə maliyyə alətləri** | **17,039** | **960,677,666** | **8,416** | **397,697,960** | **2.4 dəfə** | **42%** |
| **Repo/əks-repo** | **6** | **2,696,749** | **0** | **0** | | **0%** |
| **Qiymətli kağızlar bazarı** | **17,820** | **2,280,610,314** | **8,925** | **1,709,841,069** | **33%** | **100%** |
| İlkin bazar | 68 | 1,137,998,653 | 56 | 1,107,636,841 | 3% | |
| Təkrar bazar | 17,715 | 1,139,914,912 | 8,869 | 602,204,228 | 89% | |









# Korporativ qiymətli kağızlar

Hesabat dövrü ərzində real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əməliyyatların həcminin 7,9 dəfə artaraq 830 milyon manat təşkil etməsinə səbəb olmuşdur. Ümumilikdə səhmlərin ilkin bazarında bağlanan əqdlərin məbləği əvvəlki hesabat dövrü ilə müqayisədə 58 dəfədən çox artaraq 777 milyon manata çatmışdır.

| Korporativ qiymətli kağızlar | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017 yanvar - mart | | 2016 yanvar - mart | | məbləğ üzrə fərq | bazar payı (%) |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **692** | **1,033,096,355** | **462** | **1,157,679,302** | **-10.8%** | **100%** |
| **Səhmlər** | **467** | **829,894,914** | **416** | **105,025,799** | **7.9 dəfə** | **80.3%** |
| Səhm (ilkin bazar) | 11 | 776,958,000 | 11 | 13,246,970 | 58.7 dəfə | |
| Səhm (təkrar bazar) | 456 | 52,936,913 | 405 | 91,778,828 | -42.3% | |
| **Korporativ istiqrazlar** | **225** | **203,201,441** | **46** | **1,052,653,503** | **-80.7%** | **19.7%** |
| İlkin bazar (manatla) | 8 | 50,260,000 | 10 | 1,000,800,000 | -95% | |
| İlkin bazar (xarici valyutada) | 5 | 31,389,150 | 14 | 17,112,212 | 83% | |
| Təkrar bazar (manatla) | 5 | 47,273,449 | 19 | 34,454,438 | 37% | |
| Təkrar bazar (xarici valyutada) | 207 | 74,278,842 | 3 | 286,853 | 259 dəfə | |













Hesabat dövründə korporativ istiqrazlarla bağlanmış əqdlərin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 80% azalaraq 203 milyon manat olmuşdur. Digər tərəfdən xarici valyutada yerləşdirilmiş korporativ istiqrazların həcmi 83% artaraq 31 milyon manata çatmışdır.

# Dövlət qiymətli kağızları

Hesabat dövrü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən manata olan təzyiqin azaldılması məqsədilə həyata keçirilmiş not buraxılışları dövlət qiymətli kağızları bazarında əməliyyatların həcminin artım dinamikasını müəyyən etmişdir.

| Dövlət qiymətli kağızları | 2017 yanvar - mart | | 2016 yanvar - mart | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Dövlət qiymətli kağızları** | **83** | **284,139,544** | **47** | **154,463,808** | **84%** | **100%** |
| **Dövlət istiqrazları** | **52** | **77,100,930** | **47** | **154,463,808** | **-50%** | **27%** |
| İlkin bazar | 44 | 72,352,888 | 21 | 76,477,659 | -5.4% | |
| Təkrar bazar | 8 | 4,748,042 | 26 | 77,986,148 | -94% | |
| **Mərkəzi Bankın notları** | **31** | **207,038,615** | **0** | **0** | | **73%** |
| İlkin bazar | 31 | 207,038,615 | 0 | 0 | | |
| Təkrar bazar | 0 | 0 | 0 | 0 | | 0 |










Hesabat dövründə dövlət qiymətli kağızları bazarında əqdlərin həcmi ötən illə müqayisədə 84% artaraq 284 milyon manat təşkil etmişdir. Bunun 207 milyon manatını Mərkəzi Bankın notları ilə ilkin bazarda bağlanan əqdlər təşkil etmişdir. Dövr ərzində 72 milyon manat məbləğindən artıq qısa və ortamüddətli dövlət istiqrazları yerləşdirilmişdir. Qısamüddətli dövlət istiqrazları üzrə orta çəkili gəlirlilik 16.58% təşkil etmişdir. Dövlət istiqrazları ilə təkrar bazar əqdlərinin məbləği 4,7 milyon manat olmuşdur.

# Törəmə maliyyə alətləri bazarı

Hesabat dövrü ərzində Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 903 milyon manat olan valyuta əsaslı və ümumi dəyəri 57 milyon manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilmişdir. Ümumilikdə törəmə maliyyə alətləri bazarının ümumi həcmi 961 milyon manat olmuş və bazarda keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 dəfə artım müşahidə edilmişdir.

Törəmə maliyyə alətləri bazarı

| | 2017 | | 2016 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | yanvar - mart | | yanvar - mart | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Törəmə maliyyə alətləri** | **17,039** | **960,677,666** | **8,416** | **397,697,960** | **2,4 dəfə** | **100%** |
| Əmtəə əsaslı fərq müq. | 1,034 | 57,199,034 | 1,280 | 26,001,654 | 2,2 dəfə | 6% |
| Valyuta əsaslı fərq müq. | 16,005 | 903,478,631 | 7,136 | 371,696,306 | 2,4 dəfə | 94% |







# Repo və əks-repo əməliyyatları

Hesabat dövründə qiymətli kağızlarla keçirilən repo əməliyyatlarının ümumi məbləği 2,7 milyon manat olmuşdur. Bunun 63%-ini (1,7 milyon manat) dövlət istiqrazları ilə olan 4 repo əməliyyatı təşkil etmişdir. Korporativ istiqrazlarla 998 min manat məbləğində 2 repo əməliyyatı keçirilmişdir.

| Repo və əks-repo əməliyyatları | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017 | | 2016 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
| | yanvar - noyabr | | yanvar – noyabr | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Repo/əks-repo** | **6** | **2,696,749** | **0** | **0** | | **100%** |
| Korporativ istiqrazlar ilə repo | 2 | 997,495 | **0** | **0** | | 37% |
| Dövlət istiqrazları ilə repo | 4 | 1,699,254 | **0** | **0** | | 63% |
| Mərkəzi Bankın notları ilə repo | 0 | 0 | **0** | **0** | | 0% |